# Böyük qayıdışın addım səsləri eşidilir



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan rayonu ictimaiyyətinin nümayəndələri ilə görüşdə onları salamlayaraq demişdi: "Uzun fasilədən sonra – 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq. Şanlı Ordumuz qəhrəmanlıq göstərərək Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdi və beləliklə, 27 illik işğala son qoyuldu. İndi mən "Xoş gəlmisiniz" deyirəm, çünki mən sizi dəvət etmişəm ki, bu gözəl tarixi birlikdə burada qeyd edək. Amma bundan sonra mən Zəngilana gələndə zəngilanlılar "Xoş gəlmisiniz" deyəcəklər".***

Qədim Zəngəzurun bu dilbər guşəsinin sakini olan zəngilanlılar artıq məcburi köçkünlükdən çıxıblar. Zəngilan çox bərəkətli torpağa malik bir diyar olub, gözəl meşələri, təbii sərvətləri, filiz yataqları, çayları və dünyada ikinci, Avropada birinci olan təbii çinar meşələri ilə zəngindir. Zəngilanlılar daha Horadizə, yaxud Cocuq Mərcanlıya gedib, doğma yurdlarına oradan həsrətlə baxmayacaqlar. Dövlət başçısının qətiyyəti, iradəsi, əzmi ilə rayon sakinlərinin arzuları reallığa çevrilib. Zəngilanlılar Heydər Əliyevin xilaskarlıq missiyasını heç vaxt unutmurlar. Məhz onun köməyi ilə 1993-cü ildə yolları hər yerdən bağlanmış və Araza qərq olmuş camaat Xocalı sakinlərinin taleyini yaşamadı. Ulu öndər zəngilanlıların, Prezidentimiz isə Zəngilanın xilaskarı oldu. Bu günlər Zəngilanın torpaqlarına can verilən günlərdir. Bu günlər o torpaqları cənnət məkana çevirdiyimiz günlərdir. İndi Zəngilan yenidən qurulur və əvvəlkindən də gözəl təm-tərağa qovuşur. Bu torpaqlar 27 il ərzində erməni vandalları tərəfindən tar-mar olundu, daş üstündə daş qalmadı. Evlər dağıdılıb viran edildi. Prezident İlham Əliyev Zəngilan ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu diyarın doğrudan da çox füsunkar təbiətə malik bir yer olduğunu, ilk dəfə Zəngilana keçən ilin sonlarında gəldiyini və elə o vaxt bu diyara heyran olduğunu demişdi: "Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim – bura doğrudan da Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. ... Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb".



İndi bütün dünya görür ki, həqiqətən Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Baş plana uyğun, bütün bu təbii gözəllik nəzərə alınaraq, müasir, gözəl bir şəhər qurulur, həmçinin kəndlərdə də inşaat işləri aparılır. Azad edilən bütün torpaqlardan birinci "Ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirilir. Təməli aprel ayında qoyulan Ağalı kəndində artıq bəzi binalar hazırdır və cənab Prezidentin dediyi kimi, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlılar doğma yurdlarına qayıdacaqlar. Beləliklə, böyük qayıdışın ilk ünvanı Zəngilan olacaq.

Oktyabrın 26-da Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular. Zəngilanda "Dost Aqropark"ın və Zəngəzur dəhlizinin – Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolunun təməlini qoydular. Zəngilan rayonunda təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulan və rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış oldular. Burada layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla, tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait olacaq.

Qayıdışdan sonra Zəngilanda işsizlik probleminin olmaması məqsədilə kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görülür. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Layihə üçün hazırlanan əkin planında nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb, kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq.



Azərbaycan Prezidenti Sovet vaxtında Zəngilanda hava limanının olmadığını, bundan sonra nəinki hava limanı, hətta beynəlxalq hava limanının olacağını və Zəngilanın ölkəmizin nəqliyyat – logistika mərkəzinə çevriləcəyini də dedi. Bildirdi ki, Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz – Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq.

Zəngilanın Ağalı kəndində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış edərkən dövlət başçımız bunu bir daha xatırlatdı: "Bu gün burada, Zəngilanda olarkən təbii ki, biz Zəngəzur dəhlizi haqqında danışmasaq düzgün olmaz. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir".

Qeyd edək ki, hazırda inşası davam edən, uçuş – enmə zolağının uzunluğu 3 min metr olacaq Zəngilan Beynəlxalq Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq. Rayonun coğrafi yerləşməsi və burada olan imkanlar Zəngilanı beynəlxalq nəqliyyat – logistika mərkəzinə çevirmək üçün əlverişli şərait yaradır. Bundan əlavə, bu hava limanı Zəngilanın gələcək uğurlu sosial – iqtisadi inkişafında böyük rol oynayacaq. Tikinti işlərinin 2022-ci ildə tamamlanması planlaşdırılır.

Prezidentin tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə işlər də davam etdirilir.

Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "Ağıllı şəhər", "Ağıllı kənd" də daxil olmaqla qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan artıq olacağı gözlənilir.

Böyük qayıdışa az qalıb. Daşı da, torpağı da, heyvanı, quşu da, qumu, çınqılı da, qışı, yazı da, payızı, yayı da bir özgə gözəllikdə olan Zəngilan da doğma övladları üçün darıxıb, torpaq şirinliyindən partlayan nar kimi cadar-cadar olub, onu sevənlərin intizarındadır. Zəngilanlılar 28 illik həsrətdən sonra doğma yurda qovuşacaqları günü böyük həyəcan və səbirsizliklə gözləyirlər. Ayrılıq nə qədər ağır olsa da, vüsal o qədər və ondan qat-qat şirin olur. Rayon işğaldan azad ediləndə "gözünüz aydın!" – dedik. Tezliklə "vüsalınız mübarək, zəngilanlılar!" – demək arzusuyla...

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***